*Maqsud Qobustanlı*

## *Azərbaycanla Türkiyə*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Türkiyə Prezidenti Ərdoğanla qucaqlaşarkən ürəyim dağa döndü...***

*İik qardaş qucaqlaşdı,*
*Sevincimiz həddin aşdı.*
*Çünki ayrılmaz qardaşdı,*
*Azərbaycanla Türkiyə.*

*Bir arzu, bir diləkdədi,*
*Gücləri bir biləkdədi.*
*Dostluğu bir ürəkdədi,*
*Azərbaycanla Türkiyə.*

*Kökü bağlayır onları,*
*Bərk-bərk sarmaşıb qolları.*
*Əbədi, birdi yolları,*
*Azərbaycanla Türkiyə.*

*Tuşlanıbdır bir hədəfə,*
*Yol verməzlər heç vaxt səhvə.*
*Bəla çəkib neçə dəfə,*
*Azərbaycanla Türkiyə.*

*Bayraqları yan-yanadı,*
*İnsanları can-canadı.*
*Damarlarda qan qanadı,*
*Azərbaycanla Türkiyə.*

*Tanrı verib bol sərvəti,*
*Başdan aşır var-dövləti.*
*Uca tutur həqiqəti,*
*Azərbaycanla Türkiyə.*

*Maqsud da olur sevincək,*
*Arzular açdıqca çiçək.*
*Daim haqqa səs verəcək,*
*Azərbaycanla Türkiyə.*

## *Azərbaycan*

*Əsrlərdən güc almısan,*
*Yağılardan bac almısan.*
*Yüksəlmisən, ucalmısan,*
*Şöhrətimsən, Azərbaycan!*

*Tükənməzdi bol nemətin,*
*Carçısısan ədalətin.*
*Yenilməzdi dəyanətin,*
*Qüdrətimsən, Azərbaycan!*

*Dağlarının başı uca,*
*Tarixin qocadan-qoca.*
*Dahilərin layiq taca,*
*Ziynətimsən, Azərbaycan!*

*Dünyaya bəllidi adın,*
*Şölə saçır yanar odun.*
*Şirindən şirindi dadın,*
*Ləzzətimsən, Azərbaycan!*

*Yaraşığın mavi göllər,*
*Bəzəyindir əlvan güllər.*
*Göy zəmilər, yaşıl çöllər,*
*Nemətimsən, Azərbaycan!*

*Dalğalandıqca bayrağın,*
*Əbədi sönməz çırağın.*
*Yayılır sədan, sorağın,*
*Qeyrətimsən, Azərbaycan!*

*Bayramındı dirçəlişin,*
*Ürək açır yüksəlişin.*
*Bərəkətdi hər qarışın,*
*Sərvətimsən, Azərbaycan!*

*Adın dillərdə əzbərdi,*
*Torpağın ləldi-gövhərdi.*
*Gələcəyin xoş günlərdi,*
*Cənnətimsən, Azərbaycan!*

*Keçmişlərdə qaldı izin,*
*Sürünsən də dizin-dizin.*
*Azadlığı aldın özün,*
*Millətimsən, Azərbaycan!*

*Ürəyimsən - daim vuran,*
*Görməyəsən şaxta, boran.*
*Maqsud özü sənə qurban,*
*Dövlətimsən, Azərbaycan!*

Ədalət.-2016.-18 oktyabr.-S.4.